Ədalət.2019.31 oktyabr.S.5.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında

(əvvəli ötən sayımızda)

**- Gülarə xanım, sizin filialın ölkəmizin və dünyanın hansı universitetləri ilə elmi əlaqələri vardır?**

- ADPU-nun Şəki filialı respublikanın ali məktəblərindən Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Bakı Biznes Universiteti, Azərbaycan Xəzər Universiteti ilə yanaşı, Türkiyə, Rusiya, Fransa, Gürcüstan, Ukrayna və sair ölkələrin elmi müəssisələri ilə əlaqə saxlayır, bu təhsil müəssisələrinin təşkil etdiyi respublika və beynəlxalq səviyyəli konfranslarda əməkdaşlarımız mütəmadi olaraq iştirak edir.

**- Gülarə xanım, mən Şəki filialının tədbirlərində hərdən iştirak edirəm və tələbələrin ümumi elmi səviyyəsi haqqında müəyyən qədər məlumatım vardır. Sizdən xahiş edirəm, Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti haqqında məlumat verəsiniz.**

- Ali təhsilli mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi, tələbələrdə yaradıcılıq qabiliyyətinin formalaşdırılması və gücləndirilməsi, istedadlı gənclərin aşkar edilməsi məqsədilə tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb edilməsi işinə filialda böyük diqqət yetirilir. Bu məqsədlə filialda Tələbə Elmi Cəmiyyəti (TEC) fəaliyyət göstərir. TEC elmi tədqiqat sahəsində və elmi-təşkilati işlərdə fəal iştirak edən təhsilalanların könüllü ictimai təşkilatıdır və müəssisənin Elmi Şurası qarşısında hesabat verir.

TEC-in əsas məqsədi ali təhsilli mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və təhsilalanların elmi tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında filialın ümumi işinə kömək etməkdən ibarətdir.

Tələbə elmi-tədqiqat işinə rəhbərliyi bütün kafedralar üzrə filialın professor müəllim heyəti həyata keçirir. Filialda tələbələrin elmi-tədqiqat işi iki istiqamətdə tədris prosesində və tədrisdən kənar vaxtlarda yerinə yetirilir. Məzmununda elmi araşdırma elementləri olan tapşırıqlar, buraxılış işləri, tədris və istehsalat təcrübəsi zamanı yerinə yetirilən konkret qeyri-standart tapşırıqların icra edilməsi tədris prosesində həyata keçirilir. Tədrisdən kənar vaxtlarda isə TEC xətti ilə təhsilalan-lar tərəfindən məqalə, məruzə və tezislər üzərində iş aparılır. Təhsilalanların filialda və onun hüdudlarından kənarda keçirilən elmi seminar, konfrans, olimpiada və müsabiqələrdə iştirakına da xüsusi diqqət yetirilir.

Filialda tələbələrlə elmi-tədqiqat işlərinin təşkili filialın Elmi Şurası tərəfindən qəbul edil-miş və direktorluq tərəfindən təsdiq edilmiş "Tələbə Elmi Cəmiyyətinin Əsasnaməsi" kimi normativ sənəd və TEC-in illik iş planına əsasən tənzimlənir. Hər il TEC-in xətti ilə tələbə elmi-tədqiqat işlərinin yekun konfransı keçirilir, qaliblər qiymətləndirilir və onlar ADPU-da keçirilən TEC konfransında iştirak edirlər. Demək olar ki, filialın tələbələri hər il istər TEC, istərsə də Tələbə Gənclər Təşkilatı (TGT) xətti ilə ADPU-da keçirilən bütün tədbirlərdə yüksək yerlər tutaraq qiymətləndiriliblər.

Hər il filialımızda Tələbə Elmi Cəmiyyətinin xüsusi layihələri əsasında konfranslar, intellektual yarışmalar və müsabiqələr keçirilir.



Belə tədbirlərin keçirilməsində məqsəd istedadı və tədqiqatçılıq qabiliyyəti olan gəncləri üzə çıxarmaq və onların düzgün istiqamətləndirilnəsinə nail olmaqdır. Təsadüfi deyil ki, filialımızın məzunları içərisində yüzlərlə gənc bu gün respublikanın müxtəlif elm və təhsil müəssisələrində çalışır və tədqiqatla məşğul olur. Xüsusilə qeyd etmək istəyirəm ki, bu gün filialın professor-müəllim heyətində 20-dən çox məzunumuz bizimlə birgə çalışır. Onlardan iki nəfəri namizədlik dissertasiyası üzərində tədqiqatı artıq tamamlamışdır. Filialın Humanitar fənlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Vüsal Baxışov da bu filialın məzunudur. Hər il filialın orta hesabla 20-25 nəfər məzunu müxtəlif ali məktəblərin magistraturasına daxil olur. Filialımızın "Riyaziyyat və informatika müəllimliyi" ixtisasının bu ilki məzunu Nadir Abbaslı isə bizi daha çox sevindirdi. O, eyni vaxtda Avropanın 5 ölkəsində: Polşa, Macarıstan, Çexiya, İsveçrə, İtaliyada nüfuzlu universitetlərin magistraturasına qəbul edildi. Nadir İtaliyanın Paviya Universitetində "Kompüter mühəndisliyi" ixtisasını seçib və artıq təhsil almağa başlayıb.



Sevins hissi ilə onu da qeyd etmək istəyirəm ki, artıq filialımızın tələbələrinin mübadilə proqramlarında iştirakına da nail olmuşuq. Filialın "Xarici dil müəllimliyi - ingilis dili" ixtisasının dördüncü tədris ilinin iki tələbəsi hazırda bu xətlə Danimarkada təhsil alır.

Filialda tarixi və bayram, anım günləri, görkəmli ictimai-siaysi elm xadimlərinin, şair və yazıçıların yubileylərinə həsr olunmuş elmi konfranslar və dəyirmi masalar təşkil olunur, hüquq-mühafizə və səhiyyə orqanları ilə birgə hüquqi-maarifləndirmə tədbirləri keçirilir, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə, Konstitusiya Günü, Müstəqillik Günü, Azərbaycan Bayrağı Gününə, Dünya Azərbaycanlıların Həmrəyliyi Gününə və s. həsr olunmuş elmi konfranslar təşkil edilir. Akademik İ.D.Mustafayevin 100 illik yublileyinə həsr olunmuş konfrans, AMEA-nın Mexanika və Riyaziyyat İnstitutu və Texnika elmləri bölməsi ilə birgə keçirilmiş "Nəzəriyyədən praktikaya dövrün tədbiridir" adlı elmi konfrans, M.F.Axundzadının anadan olmasının 200, M.Ə.Sabirin anadan olmasının 150, N.Gəncəvinin anadan olmasının 870, Xurşidbanu Natavanın anadan olmasının 180, Nigar Rəfibəylinin anadan olmasının 100, Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90, M.Müşfiqin anadan olmasının 110, akademik Məcid Rəsulovun anadan olmasının 100 illiyinə həsr olunmuş, AMEA-nın Tarix İnstitutu ilə birgə "Tarixdə və tariximizdə Səniniz" adlı elmi konfranslar, "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası və milli təhsilimizin inkişaf perspektivləri" adlı regional elmi-praktik konfrans, AMEA-nın Gənc Alimlər və Mütəxəssisləri Şurası ilə birgə keçirilən "Ən son elmi naliyyətlərimiz" adlı elmi-nəzəri konfrans, II Azərbaycan Elm Festivalı xətti ilə Şəkidə keçirilən bir günlük konfrans, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə keçirilmiş "İslam həmrəyliyi: çağırışlar və maarifləndirmə" mövzusunda elmi konfrans və s. möhtəşəm və yaddaqalan elmi tədbirlər olmuşdur. Hər il filialın iş planına uyğun olaraq bu cür konfranslar təşkil olunur ki, bu da son nəticədə gənclərin elmi potensialının düzgün istiqamətləndirilməsinə münbit şərait yaratmaqla yanaşı, onlarda bu sahəyə marağı artırır.

**- Gülarə xanım, xahiş edirəm, bir qədər də filialın gələcək planları barədə məlumat verəsiniz.**

- ADPU-nun Şəki filialı saf məsləkli, sağlam əqidəli, milli şüura malik, vətənininə, dövlətinə sadiq, elmə, insan hüquqlarına hörmət edən, kreativ düşüncəli, rəqabətədavamlı mütəxəssislər - pedaqoqlar yetişdirmək, ölkənin təhsil sisteminə, elminə töhfə vermək kimi bir missiyanı həyata keçirməyi qarşısına məqsəd qoymuşdur.

Söz yox ki, bu gün ölkəmizdə gedən sürətli inkişaf, təhsilin inkişafı istiqamətində həyata keçirilən uğurlu tədbirlər pedaqoji kadr hazırlayan bir ali təhsil müəssisəsi kimi, bizim də məsuliyyətimizi artırır. Çalışırıq ki, tədrisin keyfiyyətini yüksəltməklə filiala bilikli, bacarıqlı tələbə kontingentini cəlb edək, yüksək ixtisaslı, əmək bazarında rəqabətədavamlı, səriştəli mütəxəssis hazırlığını həyata keçirmək üçün müasir təhsil sisteminin imkanlarından maksimum bəhrələnək, dünyanın qabaqcıl təhsil təcrübəsini öyrənək və ondan maksimum faydalanaq, filialın təhsil-tədqiqat-innovasiya mərkəzinə çevrilməsinə və gələcək dövrün tələblərinə cavab verə biləcək mütəxəssis hazırlığını təmin edən yeni standartların tətbiqinə nail olaq, filialın beynəlxalq əlaqələrini inkişaf etdirək, tələbələrin və professor-müəllim heyətinin mübadilə proqramlarında daha çox iştirakını təmin edək.

**- Çox sağ olun, məlumat üçün Sizə təşəkkür edir, bütün kollektivinizə başladığınız bu çətin və şərəfli yolda uğurlar arzulayırıq.**

**Çingiz Ənvəroğlu, Şəki**